**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ORTA ƏSR AZƏRBAYCAN TƏBABƏT VƏ DƏRMANŞÜNASLIĞINDA BİOETİKA PROBLEMLƏRİ

İxtisas: 5505.01 - Tarixə dair digər elmlər

Elm sahəsi: Tarix

İddiaçı: **AİDƏ ALLAHVERDİ QIZI BƏNDƏLİYEVA**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**BAKI – 2024**

Dissertasiya işi AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Əlyazmaların və əski çap kitablarının tərcüməsi və nəşri şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbərlər: tarix elmləri doktoru, professor
**Fərid Urxan oğlu Ələkbərli**
tibb elmləri doktoru, professor
**Vüqar Qurban oğlu Məmmədov**

Rəsmi opponetlər: AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
**Hacıfəxrəddin Yəhya oğlu Səfərli**

tarix elmləri doktoru, professor
**Nataliya Petrovna Şok**

tarix üzrə fəlsəfə doktoru, dosent
**Əhməd Sabir oğlu Quliyev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BFD 1.30 Birdəfəlik Dissertasiya şurası

Dissertasiya şurasının sədri: tarix elmləri doktoru, professor
**Kərim Kərəm oğlu Şükürov**

Dissertasiya şurasının elmi katibi:
tarix elmləri doktoru , dosent
**İlqar Vahid oğlu Niftəliyev**

Elmi seminarın sədri: AMEA-nın müxbir üzvü,
tarix elmləri doktoru, professor
**Musa Cəfər oğlu Qasımlı**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Hazırda müasir elmlərin, o cümlədən təbabət və tarix elminin ilkin qaynaqlarından tutmuş, onların ayrı-ayrı inkişaf mərhələlərinin öyrənilməsi qarşıda duran ciddi və təxirəsalınmaz problemlərdən biridir. Müstəqil Azərbaycan Respublikasında sağlam cəmiyyətin yaradılmasında əsas məqsəd ali varlıq olan insan amilinə, hərtərəfli inkişaf etmiş şəxsiyyətə qayğı göstərməkdir.Təsadüfi deyil ki, insan amilinə, xüsusilə onların fiziki sağlamlığına böyük önəm verən Ulu Öndər Heydər Əliyevin *"Səhiyyə xalqımızın sağlamlığı və gələcəyidir"* fikri, bu gün ölkəmizdə aparılan səhiyyə islahatlarının "sağlam həyat, sağlam gələcək" prinsipi üzərində qurulmasına təkan vermişdir. Həmçinin Ulu Öndər Heydər.Əliyev deyirdi: *"Həkim üçün ən əsas keyfiyyət yüksək mənəviyyatdır"*[1].

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında insanların hüquq və azadlıqlarının qorunmasının səmərəliyinin artırılması haqqında" 27 dekabr 2011-ci il tarixli sərəncam əsasında təsdiq olunan Milli Fəaliyyət Proqramında insanların sağlamlıq hüquqlarının qorunmasına xüsusi əhəmiyyət verilmişdir. Sərəncamda deyilir: ***"İ**nsan sağlamlığı bizim üçün əsas məsələdir"*[2].

Heydər Əliyev Fondunun milli-mədəni irsimizin qorunub saxlanılması, qədim mədəniyyət və tariximizin dünyada təbliği istiqamətində gördüyü işlərə YUNESKO tərəfindən böyük maraq göstərilir və

---

[1]Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, müraciətlər, müsahibələr, bəyanatlar, fərmanlar, I kitab / H.Əliyev, məsul şəxs R.Mehdiyev, H.Orucov. – Bakı: Azərnəşr, – 1997. – 606 s.

[2]Распоряжение Президента Азербайджанской Республики Ильхама Алиева от 27 декабря 2011 года «Об утверждении Национальной программы действий по повышению эффективности защиты прав и свобод человека в Азербайджанской Республике» // Газета «Бакинский рабочий». – 2011, 28 декабря. № 282 (467).

dəstək verilir. AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmaları İnstitutunda saxlanılan tibbə dair 3 nadir əlyazma 2005-ci ilin iyulunda YUNESKO-nun Dünya Yaddaşı Proqramının Beynəlxalq registrinə daxil edilmişdir. Bununla bağlı olaraq Fondun prezidenti və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva demişdir: "*Mən fərəh hissi ilə qeyd etmək istərdim ki, Dünya Yaddaşı Proqramına yalnız ayrı-ayrı dövlətlər və xalqlar üçün deyil, ümumilikdə bəşəriyyət üçün əhəmiyyət daşıyan yazılı abidələr daxil edilir və cəmi 120 nadir əlyazmanın daxil edildiyi bu proqramda, artıq Azərbaycana məxsus 3 əlyazma da var*"[3].

Tibb elminə aid olan 3 nadir əlyazmamıza YUNESKO tərəfindən bu cür yüksək qiymət verilməsi, onların qədim yazılı abidə olması ilə yanaşı, həm də orta əsrlərdə Azərbaycanda tibb elminin yüksək inkişaf səviyyəsinə çatmasının göstəricisidir.

XXI əsrin ilk on illiyində sürətlə inkişaf edən yeni texnologiyalar, o cümlədən biotexnologiya, nanotexnologiya, gen mühəndisliyi, tibb sahələri bir sıra etik və hüquqi problemlər yaratmağa başladı. Bu problemlər artıq regional xarakterdən çıxaraq, qlobal səviyyəyə yüksəldi. XX əsrin ikinci yarısından sonra biologiyada intensiv aparılan elmi araşdırmalar, yeni texnologiyalar, tibbi nailiyyətlər onların etik normaları və fəlsəfi mahiyyətinə dair araşdırmalardan çox qabağa getməyə başladı. Bu yeni texnologiyaların və dərinləşən elmi nəticələrin bəşəriyyət tarixində oynayaçağı rolunun etik və fəlsəfi mahiyyətini dərk etməkdə, onların düzgün istiqamətləndirilməsində amerikalı onkoloq alim Potterin təklif etdiyi bioetika elmi yeni prinsipləri ilə çıxış etdi[4]. Bu prinsiplərdə tolerantlıq, digər millətlərin mədəniyyətinə, ta-

---

[3]Bakıda "Orta əsr əlyazmalarında tibb və əczaçılıq" mövzussunda I Beynəlxalq konfans işə başlamışdır: [Elektron resurs] / Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Prezident Kitabxanasının rəsmi saytı. – URL: https://mehribanaliyeva.preslib.az/media-1f1472a50a.html

[4]Rothman, D.J. Strangers at the bedside: A history of how law and bioethics transformed medical decision-making. – New-York, – 1991. – 146 p.

rixən formalaşan mentalitetinə, yaşlı insanlara hörmət və diqqət, xeyriyyəçilik, mərhəmət, əzab çəkən insanlara qayğı öz əksini tapdı. Lakin, qeyd etmək lazımdır ki, həmin sahənin inkişafı bu gün nə qədər yeniləşsə də, onun mahiyyətində əsas etibarı ilə qədim və orta əsrlərdə Şərq ölkələrində yaranmış elmi prinsiplər durur. Amma çox təəssüf ki, bioetikanın bir elm sahəsi kimi yaranması haqqında müasir elmi ədəbiyyatda təsadüf olunan məlumatlarda onun əsas mahiyyətini təşkil edən biliklər və prinsiplərin səhv olaraq ilk dəfə yalnız XX əsrin ortalarında Qərbdə yarandığı qeyd edilir [5]. Aparılan tədqiqatlar isə sübut edir ki, bu heç də belə deyil. Bütün Şərq ölkələri kimi Azərbaycan xalqının da qədim dövrlərdən özünəməxsus bioetik və fəlsəfi görüşləri formalaşmışdır.

Bioetika elmi, tibbi təcrübələrin və sınaqların etik normativlərini tədqiq, təbiət elmləri, tibb və biotexnologiyalar sahəsində yaranan məsələlərin sosial, hüquqi və etik tərəflərini birləşdirərək, onların müzakirəsini təşkil edən, araşdıran və etik standartlar yaradan elm sahəsidir [6].

Azərbaycan Respublikasında bioetikanın müasir inkişafı özünün ilkin mərhələsindədir və onun prinsiplərinin milli və ümumbəşəri dəyərlərə önəm verməklə ictimai həyatın bütün sahələrində, o cümlədən qanunvericilik sahəsində tətbiq olunması stabil, sağlam və dinamik cəmiyyət quruculuğuna, dövlətçiliyin möhkəmlənməsinə, dünyaya inteqrasiyasına əhəmiyyətli dərəcədə təsir edə bilər.

Elmi araşdırmalar göstərir ki, Azərbaycanda elm və təbabətin inkişafının intibah dövrü orta əsrlərə təsadüf edir. Məlum olduğu kimi, tarixən çox qədim olan təbabət, insan yarandığı vaxtdan adamların gündəlik müşahidəsi və təcrübəsi sayəsində meydana çıxmışdır. Hələ qədim dövrlərdən başlayaraq, insanlar kainatda və həyatda mövcud olan reallıqları öyrəndikcə, onlarda tədricən dünyagörüşü formalaşır-

---

[5]Алекперли, Ф.У. Тысяча и один секрет Востока / Ф.У.Алекперли. – Баку: Нурлан, – т. 1. – 2008. – 492 с.

[6]İnsan hüquqları və bioetikaya dair Ümumi bəyannamə // Bioetika: sənədlər, terminlər. – Bakı: Elm, – 2009, – s. 308.

dı. Cəmiyyət təkamül yolu keçərək, inkişaf edirdi. VII əsrdən başlayaraq dünyada islam dininin meydana gəlməsi, Qurani-Kərimin və Məhəmməd Peyğəmbərin (s.) zühuru ilə bu təkamüllük mütləq kamilliyə yetişdi[7].

Orta əsr Azərbaycan alimləri, mütəfəkkirləri və şairlərinin yaradıcılığını araşdırarkən müəyyən edilmişdir ki, onlar öz əsərlərində etik-əxlaqi məsələlərə böyük əhəmiyyət vermişlər. Qədim dünyaya Azərbaycan loğmanları yaxşı tanış idi. Bu loğmanların sayəsində tibb elminin sirrləri nəsillərdən nəsillərə ötürülərək, dünyanın hər yerinə yayılırdı. Loğmanların iki mühüm tövsiyəsi müasir əhəmiyyətilə diqqəti cəlb edir. Bunlardan biri loğmanların həkimləri öz xeyrxah missiyalarını vicdanla yerinə yetirməyə, ikincisi insanları həddindən artıq qida, spirtli içkilər qəbul etməməyə və gigiyenik qaydalara riayət etməyə çağırmaları idi.

Həkimlərin əsas davranış prinsipləri Azərbaycan mədəniyyətinin qədim abidəsi olan "Kitabi Dədə-Qorqud" dastanında öz əksini tapmışdır[8]. Burada necə sağlam olmağın yolları göstərilmiş, mənəvi saflıq haqqında məsləhətlər verilmişdir. Azərbaycanın görkəmli mütəfəkkirləri, şairləri və alimləri İbn Bəhmənyar Mirzəban, Nizami Gəncəvi, Xətib Təbrizi, Mahmud Şəbustəri, Ömər Osmanoğlu, Naxçıvani, Xəqani, Füzuli və başqaları öz əsərlərində həkimlərin təmənnasız, xeyirxah və cəsur əməllərindən yazmışlar. Bu fikirlər və yazılar Azərbaycanda tibb elminin yüksək səviyyədə inkişaf etmiş olduğundan xəbər verir. Hələ XI əsrdə Azərbaycanda ilk mədrəsələrdə dini biliklərlə yanaşı, tibb elmləri də öyrədilirdi. XII əsrdə ilk dəfə olaraq, Azərbaycanda ixtisaslaşdırılmış tibb məktəbi açılmışdı. Bu məktəbdə Şirvanlı alim Ömər Osmanoğlunun rəhbərliyi ilə gələcək həkimlər hazırlanırdı. Ömər Osmanoğlunun təliminin əsasında həkimlərdə insana

---

[7]Quran elmləri və onun digər elmlərə təsiri: [Elektron resurs] / Azərİslam.com, İslam saytı – URL: http://www.azerislam.com/?l ngs = aze & cats =1 & ids =1929

[8]Kitabi-Dədə Qorqud / Tərtib edən, sadələşdirilmiş variantı və müqəddiməsi F.R.Zeynalov, S.Q. Əlizadə. – Bakı: Yazıçı, – 1988. – 265 s.

sevgi prinsipinin əsasları dururdu. Bu təlimin əsasında “özünü düşmənə çevirmə” tələbi dururdu. O, öz tələbələrini əxlaqi çəhətdən təmiz və vətənpərvər ruhda tərbiyə edir, öz xalqına fayda verməyi, eqoist olmamağı, əməksevərliyi təbliğ edirdi. Xəqani isə acgözlükdən, ikiüzlülükdən, həsəd aparmaqdan, böhtançılıqdan, qisasçılıqdan, təkəbbürlülükdən, qanunsuzluqdan, yaltaqlıqdan, düşmənçilik və yalançılıqdan xilas olmağı məsləhət görürdü. Bütün dövrlərin böyük mütəfəkkir şair-filosofu Nizami tibb elmini və sənətini yüksək qiymətləndirirdi. O, öz əsərlərində xalq təbabətinin Azərbaycanda incəlikləri və xüsusiyyətləri haqqında, düzgün qidalanmağın sağlamlığın rəhni olması haqqında dərin fəlsəfi fikirlər yazmışdır[9]. Vacib bir məqamı qeyd etmək lazımdır ki, orta əsrlərdə məhz Şərq ölkələrində baş verən sürətli inkişaf, bir çox ölkələrdə olduğu kimi Azərbaycanda da təbabət və digər elm sahələrinin inkişafında müstəsna rol oynamış, təbabət-dərmanşünaslıq sahəsində əldə edilən yeniliklər, elmi nailiyyətlər bir çox Şərq alimləriylə birgə çalışmağın sayəsində əldə edilmişdir[10]. Elə buna görə də tədqiqat işində Azərbaycan təbabət elminin inkişafında müstəsna xidmətləri olmuş bəzi şərq alim-mütəfəkkirlərinin də yaradıcılıq nümunələrinin təhlilinə yer verilmişdir. Şərqin görkəmli mütəfəkkirlərindən İbn Sinanın, Razinin, Zeynəddin Cürcaninin yaradıcılığı, XII əsrdə Orta Asiyada yaşamış məşhur fiqh (hüquq) alimlərindən biri olan Əli Mərginaninin hüquq elminə aid olan “Hidayə” (“Doğru yol”) əsəri, Azərbaycan hüquqşünaslarından olan Şeyx Əbdül-Mənarim Əhməd Təbrizi Çarpərdinin (ö.t.746/1345) “Hidayə”yə yazdığı şərhlər və onun əsasında yazılan əsərlərdə, X əsrdə yaşamış Azərbaycan alimi İsa əl-Rahinin “Tibb” adl əsərində, Təbriz Akademiyasının nümayəndəsi Məhəmməd Yüsif Təbib Yusifin 1513-cü ildə yazdığı “Came əl

---

[9] Bəndəliyeva, A.A.Nizami Gəncəvi yaradıcılığında tibbi dünyagörüşü // AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun, Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə “Nizami Gəncəvi: Sələflər və Xələflər – Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri” mövzusunda elmi-nəzəri konfransın materialları, - Bakı, - 2021. - s.106-108.

[10]Axundov, İ.A. Müasir tibbin nəzəri əsasları / İ.A.Axundov. – Bakı: Nurlan, – 2000. – 215 s.

fəvaid" ("Bütün faydaların xəzinəsi") və "Maddələrin xeyri" dərmanlara aid əsərində, Azərbaycanda yaşayıb-yaratmış ğörkəmli alim-həkimlərdən biri olan XII əsr alimi Hübeys Tiflisinin bizə gəlib çatan "Ədəb elminin qanunu" və "Qanun əl-lobəd" ("Düşüncənin və duyğuların qanunları"), "Bəyan əs-sənət" ("Peşələrin təsviri"), XIV əsrdə yaşamış Mahmud ibn İlyasın yaradıcılığında və onlarla bu kimi tədqiq etdiyimiz əsərlərdə müəlliflər, insanlara fiziki sağlamlığın sirrini öyrətməklə yanaşı, sənət, peşə, ixtisas sahələrindən danışaraq, mükəmməl sənət sahiblərinə fəlsəfi, hüquqi, etik-davranış qaydalarının da sirrlərini aşılayırlar[11].

Müasir bioetika və tibbi hüququn formalaşmasına təkan verən təbabət etikasının yaranmasında və inkişafında Şərqin mütəfəkkir filosoflarının yaradıcılığının, o cümlədən Əl-Ruhavinin "Həkimin praktik etikası", İbn-Əbu Üseybinin "Təbabətin hökmü", İbn Sinanın "Təbabət qanunu", "Firuznamə" əsərlərinin çox böyük rolu olub. Təsadüfi deyildir ki, Avropada da bu əsərlər əsrlər boyu diqqətlə öyrənilmiş, onlar Qərbin məşhur universitetlərində tibb fənnləri üzrə dərslik kini istifadə edilməkdədir.

Hazırda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılan 14 mindən çox əlyazmanın 400-ə yaxını təbabətə aiddir[12]. Tədqiq etdiyimiz tibbə, əczaçılığa və tibbi etikaya dair biliklərin əks olunduğu İbn Sinanın "Qanun fi ət-tibb"[13], Zəkəriyyə Razinin "əl-Havi-fi-tibb" [14], Əbu Reyhan Biruninin "Kitab əs-saydana fi-t-tibb" ("Tibbin farmakoqnoziyası"),[15] Seyid Mir Məhəmməd

---

[11]Ələkbərli, F.U. Ortaçağ Şərq təbabəti / F.U.Ələkbərli.– Bakı: Elgün,–2013.– 320 s.
[12]Ələkbərli, F.U. Azərbaycanda tibb tarixinin araşdırılmasına dair // "Azərbaycanda tibb elminin tarixi problemləri" I Respublika elmi konfransının materialları, – Bakı, – 1-2 fevral, – 2005, – s. 3-12.
[13]Абу Али Ибн Сина. Канон врачебной науки / перевод М.А.Салье – Ташкент: ФАН, – т. 4. – 1980. – 735 с.
[14] Алекперли, Ф.У. Тысяча и один секрет Востока / Ф.У.Алекперли. – Баку: Нурлан, – т. 1. – 2008. – 492 с.
[15]Абу Рейхан Бируни. Китаб ас-сайдана фи ат-тибб. – Ташкент: ФАН, –1974. – 1120 с.

Möminin "Töhfət əl-Möminin"[16], Məhəmməd Yusif Şirvaninin "Tibbnamə"[17], Əbu-əl Həsən Marağayinin "Müalicəti-Münfəridə"[18], Sultan Əli Xorasaninin "Dəstür əl-əlac"[19], Cürcaninin "Zəxireyi-Xorəzmşahi"[20] və digər əsərləri, Nizami Gəncəvinin əsərləri[21], Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri"[22], "Risaleyi Tibb" və "Cavahirnamə"[23], Məhəmməd Füzulinin "Səhhət və Mərəz" əsəri və qəzəlləri[24], İsa əl-Rahinin "Tibb"[25], Şafai Müzəffər və Əbu Mənsur Hərəvinin "Qərabadin"[26], Mahmud İbn İlyasın "Kitabe-tibb" ("Tibbnamə")[27], Ziyari Keykavus İbn İsgəndərin "Qabusnamə"[28] əsərləri təbabət və dərmanşünaslığın öyrənilməsi istiqamətində qiymətli tarixi mənbələrdir.

Məhz həmin dövrlərdə Azərbaycan alimlərinin yaradıcılığının milli mentalitetimizdən və mənəvi-əxlaqi dəyərlərimizdən qaynaqlandığını nəzərə alsaq məlum olur ki, orta əsrlərdə Azərbaycan təbabət və dərmanşünaslığında bioetika problemlərinin araşdırılması əhəmiyyətli bir məsələ kimi böyük aktuallıq kəsb edir.

---

[16] Алекперов, Ф.У. Труд Мухаммада Мумина «Тухфат ал-Муминин» – как источник по средневековой медицине и биологии // Материалы I научно-теоретической конференции «Средневековые рукописи и проблемы истории культуры Азербайджана», – Баку: Элм, – 1989, – с. 19-22.

[17] Muhammed Yusuf Şirvani. Tibbname. – ƏYİ, M-162.

[18] Əbülhəsən, əl-Marağeyi. Müalicəti-münfəridə / Tərc. və tərt. ed. İ.Qayıbova, red. F.U.Ələkbərli. – Bakı: Nurlan, – 2009. – 246 s.

[19] Султан Али Хорасани. Дастур ал-аладж / Рукопись из коллекции Института рукописей АН Азербайджана.

[20] الجرجاني و ابراهيم ابن زين الدين. ذخيره خوارزمشاهي. معهد المخطوطات, D-176.

[21] Nizami Gəncəvi. Seçilmiş əsərləri / Nəşrə hazırlayan (əski əlifbada) M.Sultanov. – Bakı:Yazıçı, – 1993. – 163 s.

[22] Tusi Xacə Nəsirəddin. Əxlaqi-Nasiri / Tərcümə, müqəddimə və şərhlər R.Sultanov. – Bakı: Elm, – 1989. – 256 s.

[23] طوسي نصر الدين. رسالي طبيب. معهد المخطوطات, B-5380.

[24] Rüstəmov, A.İ. Füzulinin "Səhhət və Mərəz" əsəri və onun qısa şərhi / A.İ.Rüstəmov. – Bakı: Təbib, – 1995. – 82 s.

[25] عيسى الراعي. طب. مخطوطة عمل اللغة التركية. معهد المخطوطات, B-2891.

[26] شفائي مظفر. قرابادين. معهد المخطوطات, B-3125.

[27] محمود بن الياس. "كتاب الطب" ("شهادة الطبية"). معهد المخطوطات, M-23.

[28] Qabusnamə / Farscadan tərcümə, qeyd və şərhlər edən R.S.Sultanov. Bakı: Azərnəşr, 1989. 238 s.

Aktuallığı nəzərə alaraq, bu istiqamətdə tədqiqat və tarixi araşdırmalar aparılmasını vacib və zəruri hesab etdik.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini orta əsrlərdə Azərbaycan təbabəti və dərmanşünaslığındakı (sonradan müstəqil sahəyə çevrilmiş əczaçılıq) yeniliklər, dini, fəlsəfi, etik baxışlar və bioetika məsələləri, predmetini, bu məsələləri özündə əks etdirən islam təbabəti nümunələri, bir sıra görkəmli Şərq və Azərbaycan alimlərinin nəzəri-təcrübi baxışlar və etika problemlərinə həsr olunmuş tarixi mənbələri və bəzi şair-mütəfəkkirlərin yaradıcılıq nümunələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Azərbaycan təbabətinin, dərmanşünaslığının orta əsrlərdə inkişaf mərhələlərinin, həmçinin, bioetika-tibbi hüquq problemlərinin tarixinə və müasir vəziyyətinə aid yanaşmaları, birtərəfli avropasentrist baxışları tənqidi, obyektiv tədqiq etmək əsasında bu maraqlı və vacib elm sahəsinin ilk rüşeyminin yaranmasının, inkişafının Şərqdə və ölkəmizdə hələ orta əsrlərə təsadüf etməsi reallığının təhlil edilib, öyrənilməsidir. Bu məqsədə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuşdur:

1. Azərbaycanda təbabətin və əczaçılığın ilk yarandığı dövrlərdə onların inkişaf xüsusiyyətlərini öyrənmək üçün, qədim, orta əsr tarixi mənbələrinin tədqiq edilməsi;
2. Qədim dövr və orta əsrlərdə təbabətin, dərmanşünaslığın inkişafı və bu inkişafın sürətlənməsində mühüm rol oynayan bioetik və tibbi hüquq problemlərinin tarixi mənbələr əsasında araşdırılması;
3. Orta əsrlərdə Azərbaycanda tibb və əczaçılıq etikasının formalaşmasında islam dininin rolunun müəyyənləşdirilməsi məqsədilə dini-ədəbi mənbələrin öyrənilməsi;
4. Orta əsrlərdə bəzi Şərq və Azərbaycan alimlərinin, şair-mütəfəkkirlərinin yaradıcılığında bioetik, tibbi-etik məsələlərin araşdırılması üçün bəzi elmi, ədəbi-fəlsəfi nümunələrin öyrənilməsi və onların müqayisəli şəkildə təhlilinin aparılması;
5. Aparılan tarixi tədqiqatlar əsasında əldə edilən bilgilər vasitəsilə müasir bioetika və tibbi hüquq elm sahələrinin ilkin meydana

gəlməsi, formalaşma mərhələlərinin Şərq və Azərbaycan elm mənbələrinə məxsus olmasının isbat edilməsi.

**Tədqiqatın metodları.** Tədqiqat prosesində dərketmənin ümumi-elmi metodlarından, tarixi-məntiqi və fəlsəfi dialektik, eləcə də xüsusi elmi metodlardan, müqayisəli təbabət, tibbi etika, bioetika və tibbi hüququn sistemli təhlil metodlarından istifadə olunub.

Tədqiqatın nəzəri-metodoloji əsası kimi, hər şeydən əvvəl, tarixdə dialektik metoddan bioetika və tibbi hüquq predmetləri ilə, tibb-əczaçılıq etikasının prinsipləri, dünyəvi, dini-əxlaqi qaydaların qarşılıqlı əlaqələri nəzərdən keçirilərək, tədqiq edilib. Bu zaman dialektik metodun başlıca prinsiplərindən biri – tarixiliyin və məntiqiliyin vəhdəti prinsipi tətbiq edilib. Göstərilən nəzəri-metodoloji yanaşmaların istifadə edilməsi gedişində sistemli təhlil və sintez metodları, analogiya, müqayisə, elmi ümumiləşdirmə və digər klassik metodlardan istifadə olunmuşdur.

**Müdafiyəyə çıxarılan əsas müddəalar.** 1.Təbabət və dərmanşünaslığın yaranması və tədricən formalaşması, əczaçılıq sahəsinin təbabətdən ayrılaraq, müstəqil sahə kimi inkişafı, xalq təbabətinin və ilkin müalicə vasitələrinin yaradılması, islam dininin tibbin inkişafına mühüm təsiri ilk dəfə olaraq bir sıra Şərq ölkələri, o cümlədən Azərbaycanda baş vermişdir;

2. Təbabət və dərmanşünaslığın meydana gəlməsində mühüm rol oynayan, ilk dəfə qədim dövrlərdə Şərq ölkələrində, o cümlədən Azərbaycanda inkişafa başlayan və orta əsrlərdə sürətlə formalaşan etika elminin özünün təkamül prosesi, qədim Şərq fəlsəfəsi və dini biliklərlə əlaqəli şəkildə inkişaf etməsi nəticəsində mümkün olmuşdur;

3. Orta əsrlərdə mövcud olan etika elmi təbabət və əczaçılıq fəaliyyətinin tənzimlənməsi üçün, tarixi mənbələr əsasında aşkar edilmiş əxlaqi dəyər və tibbi etik qaydaları, həmçinin bu peşəkarların mənəvi, etik davranış formalarını müəyyən etmişdir.

4. Müasir bioetika və tibbi hüquq elmi təbabət, biologiya, hüquq, fəlsəfə elmlərinin və islam dininə məxsus biliklərin vəhdətindən ya-

ranmış, bu tarixi gerçəklik Şərq, o cümlədən Azərbaycan alimləri, həkimləri, şair və mütəfəkkirlərinin əsərlərinin bir çox nümunələrində öz əksini tapmışdır.

5. Bəzi tarixi yazılı mənbələr üzərində aparılan elmi araşdırmalar, tibb və əczaçılıq bioetikasının, onun bir çox prinsiplərinin yaranma tarixinin müasir və yeni dövrə deyil, orta əsrlərə məxsus olduğunu sübut etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat nəticəsində aşağıda qeyd edilən elmi yeniliklər əldə olunmuşdur:

- Orta əsrlərdə təbabət və dərmanşünaslıq sahəsində olan bir sıra kəşflərin müasir əczaçılıq elminin formalaşmasında oynadığı rol;
- Orta əsrlərdə yaranmış dini məlumatların tibb və əczaçılıq etikasının inkişafına olan təsiri;
- Azərbaycan təbabət və dərmanşünaslığının inkişafında orta əsr tibb etik meyarlarının yeri və rolu;
- Müasir bioetika və tibbi hüquq sahəsində mövcud problemlərin həll edilməsində tətbiq edilən müasir prinsiplərin əsas mahiyyətinin qədim Şərq, o cümlədən Azərbaycan orta əsr mənbələrindən qaynaqlanması haqqında reallıqlar;
- Hazırda dünyada “bioetika” adlanan elm sahəsinin yaranma dövrünün orta əsrlərə təsadüf etməsinin müəyyən edilməsi.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat işinin nəticələrindən tarix, fəlsəfə, bioetika, tibbi hüquq, tibbi ekologiya, təbabət etikası, tibb və əczaçılıq tarixinə dair fənnlərin tədrisi zamanı, bakalavr və magistr pillələrində təhsil alan tələbələr tərəfindən, həmçinin elmi tədqiqatlarda dəyərli mənbə kimi istifadə oluna bilər.

**Aprobasiyası və tədbiqi.** Tədqiqatın nəticələri haqqında bioetika, sağlamlığın qorunması, o cümlədən tibbi hüquq, təbabət, dərmanşünaslıq tarixinə həsr olunmuş beynəlxalq və respublika əhəmiyyətli elmi-praktik konfranslarda məruzələr edilmişdir. Müəllif tərəfindən dissertasiya mövzusu üzrə Azərbaycan, Türkiyə, Rusiya, İndoneziiya, Moldova, Ukrayna, Çexiya, Slovakiya, Macarıstan, İtaliya və Amerika elmi nəşriyyatlarında, o cümlədən, beynəlxalq xülasələndirmə və indeksləşmə sistemlərinə (bazalarına) daxil olan dövrü elmi nəşrdə

çap edilmiş məqalələrində öz əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Tərcümə və informasiya" (hazırkı "Əlyazmaların və əski çap kitablarının tərcüməsi və nəşri") şöbəsi.

**Dissertasiyanın struktur bölmələri daxil olmaqla ümumi həcmi.** Dissertasiya işi (ədədbiyyat siyahısı və cədvəllər istisna edilməklə) 243413 işarədən ibarətdir. Dissertasiyanın əsas məzmunu: Giriş- 45599 işarədən , I fəsil -44941 işarədən, II fəsil- 63982 işarədən, III fəsil -76564 işarədən, Nəticə -12327 işarədən ibarətdir.

## II. DİSSERTSİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində tədqiqatın ümumi səciyyəsinin ifadə olunması, mövzunun elmi aktuallığının əsaslandırılması, tədqiqatın predmeti, obyekti, tədqiq tarixi, elmi-nəzəri əsasları, məqsəd və vəzifələri, metodu, nəzəri və praktiki əhəmiyyəti, işin aprobasiyası və strukturu barədə məlumat verilməsi nəzərdə tutulmuşdur.

Tədqiqat işinin I fəsli **"Azərbaycanda təbabətvə əczaçiliğin tarixi inkişaf mərhələləri"** adlanır. I fəslin **"Azərbaycanda təbabətin yaranması və inkişaf xüsusiyyətləri"** adlanan birinci yarımfəslində göstərilir ki, qədim Azərbaycan təbabətinin inkişafında Hindistan, Misir, Çin və Şərqin digər ölkələrinin zəngin irsinin çox böyük rolu olmuşdur. Eyni zamanda xalq təbabətinin çoxəsrlik təcrübəsi, elmi müşahidələr və eksperimentlər əsasında işlənib hazırlanmış, müxtəlif xəstəliklərdə diaqnostika, profilaktika, terapiya və farmakologiya məsələlərinin tədqiqinin müasir üsullarının dərindən öyrənilməsi bir çox cəhətdən təbabət elmini zənginləşdirə bilər[29].

[29]İbrahimov, A. Xalq təbabətinə aid əlyazmaları [3 cilddə] // Bakı: Əlyazmalar xəzinəsindən / red. M.S.Sultanov. – Bakı: Elm, – 1972. – s. 5-12.

Qeyd edilir ki, bir çox tibbi məlumatlar qədim“Avesta”da öz əksini tapmışdır. “Avesta”da ilkin dünya anlayışı ümumilikdə canlı təsvirlərlə göstərilmişdir.

Tədqiqat işində tarixi mənbələr əsasında təsdiq edilir ki, I yuzillikdən başlayaraq XIV yüziliyə qədər müsəlman alimlərindən İbn Sinanın “Qanun”[30], Əbülqasım Zəhravinin “Risalətül-cərrahi”[31] və Razinin “əl-Havi[32] diğər əsərlər, latın dilinə tərcümə olunmuş və Qərbi Avropada təbabət elminin inkişafına və formalaşmasına mühüm təsir göstərmişdir. Qeyd edilir ki, orta əsrlərdə Şərqdə, o cümlədən Azərbaycanda təbabət elminin təşəkkül dövrü idi. XII əsrdə Şamaxıda azərbaycanlı alim Kafiyəddin Ömər Osman oğlu tərəfindən açılan akademiya Azərbaycanda ilk akademiya sayılır[33].

XIII əsrdə Azərbaycanın məşhur həkimi Rəşidəldin Fəzlullahın Təbriz şəhərində açdığı ikinci böyük islami elmlər akademiyası da öz fəaliyyətilə tarixə düşmüşdür.

XIII əsrdə Azərbaycanın Təbriz şəhərində görkəmli Azərbaycan münəccimi və həkimi Nəsirəddin Tusi tərəfindən təşkil edilən akademiyada tibbi sahəyə rəhbərlik edən görkəmli həkim Əbdülməcid Təbib olmuşdur. Azərbaycanlı alim və təbib Yusif Qarabaği İbn Sinanın “Qanun” əsərinə geniş şərh və haşiyələr yazmışdır. XVII-XVIII əsrlərdə yaşamış Murtuza Qulu xan İbn Həsən Şamlu Azərbaycanda tibb elminin ginekologiya və andrologiya sahələrinə aid ayrıca kitab həsr etmiş ilk azərbaycanlı alimdir.

---

[30] Абу Али Ибн Сина. Канон врачебной науки / перевод с арабского М.А.Салье, У.Т.Каримова, А.Расулева – Ташкент: ФАН, – т. 1. – 1981. – 550 с.

[31]Абу ал-Касим аз-Захрави. Трактат о хирургии и инструментах / Издание текста, перевод с арабского, предисловие и указатели З.М.Буньядова. – Москва: Наука, – 1983. – с. 284-317.

[32]Бандалиева, А.А. История медицины и фармации в Азербайджане // –Киів: Национальний педагогічний университет імени М.П.Драгоманова ВГО Українська академія наук Видавництво «Гілея» Науковий вісник, –2019. № 145 (№ 6), – с. 13-17.

[33]Ələkbərli, F.U. Azərbaycanda tibb tarixinin araşdırılmasına dair // “Azərbaycanda tibb elminin tarixi problemləri” I Respublika elmi konfransının materialları, – Bakı, – 1-2 fevral, – 2005, – s. 3-12.

Böyük alim Zeynəddin Curcaninin "Zəhireyi-Xarəzmşahi" ("Xarəzmşahın ehtiyat vasitələri") əsəri də anatomik məlumatlarla zəngindir[34]. İnsan orqanizminin quruluşuna dair mühüm məlumatların əks olunduğu orta əsr nümunələrindən biri də Abubəkir Hüseyn-əl-Buxaranın (XI əsr) "Təbabət üzrə müəllimlərin dərsliyi"dir.

Diqqətə çatdırılır ki, İbn-Sinanın "Qanun" əsərində mənəvilik və maddilik (cismani) arasında əlaqələr ətraflı tədqiq edilmişdir[35]. İbn-Sinanın tələbəsi olmuş azərbaycanlı alim Bəhmənyar əl-Azərbaycani özünün fəlsəfəyə aid "Ət-Təhsil" ("İdrak") əsərində bir sıra tibbi mövzulara da toxunaraq, insanın mənəvi və emosional fəaliyyətini öyrənmlşdir[36]. Azərbaycanın tanınmış alimi Xacə Nəsirəddin Tusi İbn-Sinanın nəbzin hərəkətinin qeyri-iradi, nəfəsalma hərəkətinin iradi olması barədə fikirlərini tənqid etməklə bildirir ki, onda insan yatan zaman nəfəs almamalıdır, çünki əsəb sistemi açılır və onun iradi hərəkətləri kənarlaşır (qopur)[37].

Bu yarımfəsildə yekun olaraq belə qənaətə gəlinir ki, orta əsrlərdə alimlər nəinki orqanizmdə baş verən patoloji dəyişiklikləri öyrənmiş, eyni zamanda onların aradan qaldırılması və xəstəliklərin müalicəsi üçün təbiətdən əhəmiyyətli müalicə vasitələrinin axtarılması ilə ciddi şəkildə məşğul olmuşlar.

Dissertasiyanın I fəslinin **"Orta əsrlərdə Azərbaycanda əczaçılığın müstəqil sahə kimi inkişafında alimlərin rolu"** adlanan ikinci yarımfəslində göstərilir ki, dünya elm tarixində ilk dəfə Şərqdə orta əsrlərdə dərmanların hazırlanması, saxlanılması haqqında elm - əczaçılıq, dərmanların səmərəsini, təsir mexanizmi və tətbiqini öyrənən tibb elm sahəsi olan farmakologiyadan ayrılmışdı.

---

[34] الجرجاذي و ابراهيم ابن زين الدين. يخرزم شاه زاهيري. عهد المخطوطات, D-176.
[35]Абу Али Ибн Сина. Канон врачебной науки / перевод У.И.Каримова, М.А.Салье – Ташкент: ФАН, – т. 3 (1). – 1979. – 792 с.
[36]Бахмньяр ал-Азербайджани. Ат-Тахсид / Перевод и комментарии А.В.Сагадеева. – Баку: Элм, – Книга третья, – 1983. – 208 с.
[37]Ələkbərli, F.U. Nəsirəddin Tusinin təkamül görüşlərinə dair / F.U.Ələkbərli. – Bakı: Örnək, – 2002. – 42 s.

Nəzərə çatdırılır ki, Əbu-Mənsur Müvəffəqin "Farmakologiya-nın əsasları haqqında" əsəri, Razinin tibbə və dərmanların təsirinə həsr edilmiş "Dərmanların faydası", "Sirlər kitabı", "Əl-havi" adlı xüsusi kitabları və İbn Sinanın "Qanun"-nun dərmanşünaslığa həsr olunmuş 1-ci və 3-cü kitablarında olan nümunələr əczaçılığın inkişafında böyük rol oynamışdır.

Azərbaycanda əczaçılığın inkişafina öz yaradıcılığı ilə müsbət təsir göstərən alim Əbu-Reyhan. Biruninin "Kitab əs-saydana fi ət-tibb."[38], "Mineralogiya"[39], "Əczaçılıq", "Cadulama" və "Farmakoq-noziya" əsərləri orta əsr Şərqində dərmanşünaslığın dəyərli mənbələ-rindəndir[40].

Nəzərə çatdırılır ki, Şərqin orta əsr təbabətinin üçüncü ən böyük ensiklopediyası hər şeydən əvvəl farmakoterapiya məsələlərindən bəhs olunan "Ümumtanınmış təbabət"dən, "Qanun"dan bir qədər əv-vəl yazılmış, Zeynəddin Cürcaninin "Zəhireyi-Xarəzmşahi" ("Xa-rəzmşahın ehtiyatları") sənət nümunəsidir. Bu ensiklopediya 10 kitab-dan ibarətdir [41].

XIII-XIV əsrlərin böyük azərbaycanlı əczaçı alimi Yusif İbn İs-mayıl[42] çoxlu sayda bitki, heyvan və mineral mənşəli müalicə vasitə-lərindən bəhs etmişdir.

Azərbaycanlı alim İsa əl-Rahi, Əbülhəsən Mərağayinin "Müali-cəti-münfəridə" əsərlərində də əczaçılıq və farmakologiya haqqında məlumatlar az deyildir.

---

[38]Абу Рейхан Бируни. Китаб ас-сайдана фи ат-тибб. – Ташкент: ФАН, –1974. – 1120 с.

[39] Абу Рейхан Бируни. Минералогия / Серия «Классики науки». Москва: АН СССР, – 1963. – 521 с.

[40]Абу Рейхан Бируни. Книга по фармакогнозии в медицине / Исследование, перевод, примечания и указатели У.И.Каримова – Ташкент: ФАН, – 1974. –705 с.

[41]الا مخطوطات عهد .خرزمشاهي زاهيري .الدي نز زي ن اب راهيم اب و الا جرجاذ ي, D-176.

[42]Алекперов, Ф.У., Фарзалиев, А.М. Азербайджанская медико-биологическая лексика XVIII в. в труде Мухаммада Йусифа Ширвани «Тиббнаме» // Материалы научно-практической конференции «Проблемы азербайджанской терминологии», – Баку: АПИ им. М.Ф.Ахундова, – 1989, – с. 210-211.

XV əsrdə tanınmış azərbaycanlı alim Məhəmməd ibn Yusif Şirvaninin kitablarında həmin dövrdə istifadə edilmiş dərman vasitələrinin böyük kataloqu vardır.

Orta əsrlərdə özünün intibah dövrünü yaşayan təbabət elminin Azərbaycanda sürətli inkişafı, ölkənin demək olar ki, bütün ərazilərində müalicəxanaların yaradılması və müalicə işlərinin aparılması ilə müşaiyət olunurdu. Elə bir müalicəxana yox idi ki, orada əczaxanalar fəaliyyət göstərməsin.

I fəslin üçüncü yarımfəsli **"İlkin dərman vasitələrilə müalicə"** adlanır. Bu yarımfəsildə dərman terapiyası və dərman vasitələrilə müalicə məsələləri, bütün Şərq, həmçinin Azərbaycanın orta əsr alimlərinin həkimlərinin əsərləri ilə tanışlıq nəticəsində əczaçılıq və farmakologiya yüksək inkişaf səviyyəsinə çatdığından, dərman bitkilərinin öyrənilməsinin daha geniş vüsət aldığından bəhs edilir.

Orta əsrlərdə Azərbaycanın tibbə aid ədəbiyyatlarında, həmçinin Mirzə Mehdi Nəqtaş Gəncəvinin (1791) "Qərabadin"ində 74 müalicəvi bitki tərkibli dərman formaları haqqında məlumat verilir[43].

Ümimiyyətlə, qədim dövr və orta əsrlər təbabət və əczaçılığının inkişaf tarixini araşdırdıqda, məlum olur ki, bütün bu müvəffəqiyyətlərin əldə edilə bilməsinin kökündə güclü etik-əxlaqi dəyərlər, onların idraki və fəlsəfi prinsipləri, bu prinsiplərin qorunub, onlara peşəkarlıqla riayət olunması dayanır.

Dissertasiyanın II fəsli **"Orta əsr Azərbaycan təbabəti və dərmanşünaslığında tibbi etika və din"** adlanır. Həmin fəslin **"Orta əsr təbabət və dərmanşünaslığın inkişafında etik, dini və fəlsəfi baxışların rolu"** adlı birinci yarımfəslində dərmanşünaslıq elminin mənşəyi, inkişaf mərhələsi, əlamətləri, əxlaq qaydalarının bünövrəsi və mənşəyi eyni olmaqla, əsas məqsədi də "şəfa bəxş etmək", "müalicə etmək" prinsipi olduğu göstərilir. Bu sənət və elm sahəsinin qeyd edildiyi istiqamətdə inkişafına həmin sahələrin peşəkarlarının sənətsevərliyi, əməksevərliyi və səyi nəticəsində nail olunmuşdur.

---

[43] B-3125 شد فاي ى مظ فر. ق ره آب اديـ ن.عهد الـ مخطوطات,

Atəşpərəstliyin dini kitabı olan "Avesta" abidəsi təhlil edilərkən məlum olur ki, qədim və orta əsr Şərq, o cümlədən Azərbaycan alimlərinin əsərlərində təbabətin və əczaçılığın etikasina dair çoxlu təlim və baxışlar öz əksini tapmışdır[44].

Dissertasiyanın II fəslinin **"İslam təbabətində əxlaqi-etik dəyərlər və bioetikanın təzahürü"** adlı ikinci yarımfəslində dünyəvi etika ilə yanaşı, xüsusi mədəni fenomen kimi dinin də humanist, tənzimləyici və təhsil funksiyalarını həyata keçirdiyindən, qədim dövrlərdən indiyənə qədər əxlaq mədəniyyətinin formalaşmasında dinin çox böyük əhəmiyyətindən, həm Yunan-Avropa, həm Hind-Çin və həm də Ərəb-müsəlman mədəniyyətində fəlsəfi, elmi, bədii sənət nümunələrinin yaranmasında və inkişafında dinin güclü rol oynadığından bəhs olunur.

İslamın ən müqəddəs sərvətlərindən biri olan, müsəlmanların etiqad kitabı, əxlaqi təlim və hikmət mənbəyi, ilahi kəlamlar toplusu və əzəmətli söz abidəsi kimi Qurani Kərim, müxtəlif fikir adamlarının diqqətini cəlb etmişdir[45].

İslamda Allahın həkimlərin əlilə insanlara şəfa göndərdiyi bildirilir və bu cür müqədddəs əməlin sahibləri olan həkimlərə yüksək dəyər verilir[46]. Bu səbəbdən də həkimlərin hər zaman yüksək əxlaqa, mədəniyyətə, humanist və mərhəmətli, ədalətli olmaq kimi xüsusiyyətlərə malik olması son dərəcə vacib hesab edilmişdir.

Qeyd edilir ki, YUNESKO-nun Bioetika və İnsan Hüquqları Ümumi Bəyannaməsində müəyyənləşdirilən bioetikanın 15 prinsipi demək olar ki, mahiyyət etibarı ilə islami dəyərlərlə tam vəhdət təşkil

---

[44]"Avesta" / Fars dilindən tərcümə edən İsmayıl Şəms. – Bakı: Azərnəşr, – 1995. – 102 s.

[45]Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər V.M.Məmmədəliyev, Z.M. Bünyatov. – Bakı: Qismət, – 2006. – 480 s.

[46] Göyüşov, N.C. İslamda elm və etik dəyərlərin vəhdəti // Bioetika, elm və texnologiyaların etikası problemləri, Məruzələr toplusu, – Bakı: Elm, – 2005, – s. 245-248.

edir və bu dəyərlərə uygun məzmun daşıyır[47].

XX əsrin ortalarından başlayaraq, hazırkı müasir dövrümüzdə tibb, biologiya və digər texnoloji elm sahələrində baş verən yeniliklər nəticəsində yaranan dəyişikliklərə, hüquqi-əxlaqi cəhətdən müasir bi-oetika, tibbi hüquq elminin öz yanaşması vardır ki, bu zaman qorunması tələb olunan əxlaqi-etik dəyərlər və prinsiplər də islami dəyərlərə çox uyğundur.

Göründüyü kimi, bu gün dünya alimlərinin yeni bir kəşf kimi yanaşdıqları bir çox məsələlərə islam elmində hələ 1500 il əvvəl diqqət yetirmiş və onlar Qurani-Kərimin bəzi ayələrində əks olunmuşdur[48].

Beləliklə, aparılan bu müqayisəli təhlil zamanı bir daha məlum olur ki, istər ali dəyərlərə söykənən islam qanunları, istərsə də bioetika elminin prinsipləri bu ali məqsəddən kənar deyildir. Əksinə bu müqayisəli təhlildə bir paralellik və bir eynilik müşahidə olunmaqdadır. Araşdırmalar bu gün bir daha onu deməyə əsas verir ki, müasir dövrdə bioetika problemləri adlandırılan məsələlər əslində ta qədimdən mövcud olmuş və onların həll edilməsi islam təbabətinin özünün inkişafına müəyyən təsir göstərmişdir.

Dissertasiyanın II fəslinin üçüncü yarımfəsli **“Orta əsrlərdə Azərbaycanda islam təbabəti və bioetika problemləri” adlanır.** Bu yarımfəsildə Orta əsrlərdə digər ölkələrdə olduğu kimi Azərbaycanda da təbabətin və əczaçılığın inkişafının islam dininin meydana gəlməsindən sonra özünün intibah dövrünü yaşaması ətraflı təhlil olunur. Bildirilir ki, qədim və orta əsr Şərq, o cümlədən Azərbaycan alimləri tibbdə və biologiyada etika problemlərinə böyük əhəmiyyət verirdilər [49].

---

[47] Beauchamp, T.Principles of the Biomedical Ethics / T.Beauchamp, J.Childress – New-York, – 1999. – 309 p.

[48] Qurani-Kərim / Ərəb dilindən tərcümə edənlər V.M.Məmmədəliyev, Z.M. Bünyatov. – Bakı: Qismət, – 2006. – 480 s.

[49]Məmmədov, V.Q., Bəndəliyeva, A.A. İslami dəyərlərdə bioetika prinsiplərinin təzahürü // “Din və Etiqad azadlığı: Hüquqi, siyasi və ictimai aspektləri” Beynəlxalq tərkibli konfransın tezislər toplusu, AMEA İnsan Hüquqları İnstitutu, – Bakı, – 2012,

İslam dini baxımından çox yaxın qohumluq nigahları tibbi etikaya və bəşəri əxlaqa zidd sayılırdı[50]. Məhəmməd Peyğəmbər üzünü öz tərəfdarlarına tutub deyirdi: "*Cılız övlad dünyaya gətirməmək üçün qohumlarınızla evlənməyin*"[51].

Göründüyü kimi İslam dini özünün şəriət qanunlarında ilk növbədə insan ləyaqətinə hörmət və qayğı prisiplərinə söykənir.

Hazırda dünya miqyasında, o cümlədən respublikamızda qeyd olunan sahədəki problemlərin həlli üçün bioetik prinsiplərin və hüquqi bazanın yaradılmasından öncə, əsrlərin sınağından çıxıb gələn, özünü doğruldan islami etik dəyər və prinsiplərinin tədqiqi, öyrənilməsi daha zəruri və vacibdir.

Dissertasiyanın III fəsli **"Orta əsrlərdə Azərbaycan alimlərinin yaradiciliğinda bioetika məsələləri"** adlanır. Bu fəslin**" Orta əsr elm mənbələrində təbabətə dair nəzəri-təcrübi baxışlar və etika problemləri"** adlanan birinci yarımfəsli elmi axtarışlar və elmi kəşflər, onların nəticələrinin həyata keçirilməsinə, ətraf mühitin, təbiət hadisələrinin mahiyyətinin dərk edilməsinə, nəticə etibarı ilə isə sağlam həyat prinsiplərinin müəyyənləşməsinə həsr olunmuşdur.

Bu yarımfəsildə dünyada elmin və texnikanın sürətli inkişafı bir çox uğurlarla yanaşı, bir sıra ciddi mühüm problemlər də gətirdiyi diqqətə çatdırılır. Qeyd edilir ki, alimin cəmiyyət qarşısında məsuliyyəti mürəkkəb və çoxtərəfli bir məsələdir. Bu məsələ bir çox amillərin təsirindən əmələ gəlir və elmin daha geniş etik problemləri ilə yaxından uzlaşır.

Böyük alim Əbdülqasim Zəhravi çoxsaylı mürəkkəb cərrahi alətlərin hazırlanması və tətbiq edilməsi haqqında geniş biliklərə malik olmuşdur. Bu alətlər haqqında o, özünün "Cərrahi alətlər" əsərində

---

– s. 26-27.

[50]Ələkbərli, F.U. Şərqdə ailə və nikah / F.U.Ələkbərli. – Bakı: Tural nəşriyyatı, – 2001. – 196 s.

[51]Məmmədəliyev, V.M. İslamda bioetika məsələləri // Bioetika, elm və texnologiyaların etikası problemləri, Məruzələr toplusu, – Bakı: Elm, – 2005, – s. 108-121.

müfəssəl məlumatlar vermişdir. Əbdülməcid Təbib, Ömər Osmanoğlu, Murtuza Qulu xan İbn Həsən Şamlu, Yusif Şirvani, Əbdülhəsən Marağayi və başqa görkəmli alimlər təbabət təcrübəsində çoxsaylı dərman vasitələrini ilk dəfə eksperiment zamanı fizioloji təsirinin öyrənilməsi əsasında tətbiq etmişlər.

Eksperimentin inkişafında Biruninin böyük xidmətləri olmuşdur. Biruninin də bütün əsərlərində humanist fikirlər öz əksini tapmışdır.

İnsan davranışının bütün növlərində orta əsr alimləri şüura (idraka) xüsusi yer vermiş və həmişə bu mövqedən çıxış etməyi məsləhət görmüşlər.

Ensiklopedik alim olan Əbunəsr Fərabi öz yaradıcılığında sübut edir ki, insan idraka və yaradıcı fəal fəaliyyətə təsir edə bilir, etikanın əsas məqsədi xoşbəxtliyə nail olma yollarını izah etməkdir[52].

Beləliklə, orta əsr elm mənbələrində bir çox nümunələrin ətraflı təhlil edilməsi onu qeyd etməyə əsas verir ki, həmin dövrün alimləri çoxlu sayda böyük elmi nailiyyətlər əldə etməklə yanaşı, bu nailiyyətlərin cəmiyyətdə tətbiq edilməsi zamanı insan ləyaqətinə hörmət edilməsi, təbiətə və cəmiyyətə qarşı münasibətdə humanistliyin, mərhəmətliliyin qorunması, xeyirxah olmaq, ziyan verməmək, ədalətli olmaq, ətraf mühiti qorumaq kimi mühüm dəyərlərin qorunmasını hər zaman həyati vacib dəyərlər hesab edirdilər. Mühüm bir amil də ondan ibarətdir ki, bu cür əxlaqi-etik prinsiplərə söykənən dəyərlər tək o dövrün alimlərinin deyil, həmçinin cəmiyyətin sağlam ruhda inkişaf etməsində mühüm tarixi rol oynayan şair və mütəfəkkirlərinin də yaradıcılığında əsas yerlərdən birini tutur.

Dissertasiyanın III fəslinin **“Orta əsr Şərq və Azərbaycan şair və mütəfəkkirlərinin ədəbi-fəlsəfi yaradıcılığında bioetika prinsipləri”** adlanan ikinci yarımfəslində müasir alimlər, V.R.Potterin “Bioetika: gələcəyə körpü” və ABŞ-da nəşr edilən 4 cildlik “Bioetika Ensiklopediyası”, B.T.Liroy Noltersin “Bioetikada müasir baxışlar”,

---

[52]Хайруллаев, М.М. Абу Наср Ал-Фараби его рол в истории философии / М.М.Хайруллаев. – Ташкент: Фан, – 1967. – 335 с.

Ç.Bernard, Ç.Valver və D. Klozerin "Bioetika: əsaslara qayıdış", B.T.Liroy və F.Ceymsin "Biotibbi etika", A.N.Orlovun "Kilinik bioetika"[53], Azərbaycanda nəşr olunan "Bioetika" kimi əsərlərdə bioetika elmi insan əxlaqının, fiziki və mənəvi dəyərlərinin formalaşmasının daşıyıcısı olan yeni bir kəşf kimi dəyərləndirilir[54].

Klasssik Azərbaycan şair-mütəfəkkirlərinin ədəbi-fəlsəfi əsərlərində həmçinin, insan sağlamlığı üçün nəyin faydalı, nəyin zərərlı olması, insana ruh düşgünlüyü gətirən şəxsi hisslərin dərdə çevrilməməsi üçün nəsihətlər, zərərli vərdişlərdən uzaq olmağın, faydalı nemətlərdən düzgün istifadə edilməsi, bir sözlə xeyirlə şərin müqayisəli təhlilləri elmi-ədəbi dildə şərh edilir.

Şərqdə orta əsrlərdə görkəmli filosoflar, həkimlər, təbiblər, astronomlar, riyaziyyatçılarla yanaşı, həmçinin Rudəki, Firdovsi, Sədi, Hafız, Məhəmməd Füzuli, Nizami Gəncəvi, İmadəddin Nəsimi, Ömər Xəyyam, Xəqani, Nəsirəddin Tusi və başqa dünya şöhrətli mütəfəkkirlər, rəssamlar və şairlər yaşayıb, yaratmışlar[55].

Humanist baxışlar və nəsihətlər Sədinin əsərlərində ana xətt təşkil edir. Sədi yazır ki, dünyada sakitlik, dostlarına xeyirxahlıq etmək və düşmənlərlə ümumi dil tapmaqdan ibarətdir. İnsanın emosional sahəsi və emosional təsirli məsələləri məşhur şair-mütəfəkkir Hafiz Şirazinin əsərlərində daha yaxşı əks olunmuşdur[56]. Sağlamlıq və xəstəliyin qarşı-qarşıya qoyulması Əbdülqasim Firdovsinin şeirlərində xeyirlə şərin mübarizəsi formasında öz əksini tapmışdır[57].

Hazırda inkişaf etməkdə olan müasir bioetika elmində mövcud

---

[53]Rothman, D.J. Strangers at the bedside: A history of how law and bioethics transformed medical decision-making. – New-York, – 1991. – 146 p.

[54]Mammadov, V.Q. Recent developments of medical law and bioethics in Azerbaijan // Lvov, Ukrayna: "Медичнеправо" (Medical Law, Ukrainian Scientific Journal), – 2013. № 1 (11), – p. 43-53.

[55]Bandaliyeva, A.A., Quseynova , A.B., Aslanov, M.Q. Medical worldwide in the creation of famous poets and thinkers of ancient Azerbaijan // Budapest, Hungary: - The scientific heritage journal, – 2023. № 124, - p.20-24.

[56] Şəms əd-Din Məhəmməd. Hafiz Şirazi. Seçilmiş şeirləri. – Bakı: Öndər, – 2004. – 208 s.

[57] Firdovsi, Ə.H. Şahnamə / Ə. H. Firdovsi. – Bakı: Öndər nəşriyyatı, – 2004. – 432 s.

olan 15 prinsipdən biri də gələcək nəsillərin sağlamlığının qorunması üçün ətraf mühitin qorunması problemidir. Bu problemin əsasında isə təbiətin, ekoloji mühitin, o cümlədən flora və faunanın qorunması durur ki, bu həm də ekoloji etika adlanır. Ekoloji etika insandan təbiətə qarşı yüksək humanistlik və ədalətlilik tələb edir[58]. Təsadüfi deyil ki, orta əsr mənbələrinə aid olan məlumatlarda bildirilir ki, o zamanlar elmi təcrübələr zamanı heyvanları incitmək, öldürmək qadağan olunmuşdu və Azərbaycanda diri heyvanlar üzərində heç bir təcrübə aparılmırdı Nizami öz əsərlərində təbiətin yaraşığı olan heyvanlar aləminə böyük dəyər verir və o zaman ova çıxıb günahsız heyvanları ovlayanları tənqid atəşinə tutaraq yazır ki, əgər yaradan heyvanları təbiətə bəxş etmişsə, onların təbiət üçün dəyəri, faydası var[59].

Nəsrəddin Tusi əxlaqı sərvət hesab edərək, onun fitri olmadığını qeyd edirdi[60].

Ömər Xəyyam vaxtını şən keçirtmək, əhval-ruhiyyəni artırmaq üçün çalışmaq, cənnət və cəhənnəm barədə din nümayəndələrinin sözlərinə inanmamaq haqqında fikirlərini daha gözəl tərzdə ifadə etmişdir.

Azərbaycanın XVI əsr böyük mütəfəkkiri və şairi Məhəmməd Füzulinin də əsərlərində tibbə dair çox maraqlı fikirlər öz əksini tapmışdır[61]. O, tez-tez acgözlüyün zərəri, onun sinir sistemini pozması barədə danışmışdır. Füzuli "Səhhət və Mərəz" əsərində ilk dəfə elmi

---

[58] Bəndəliyeva, A.A., Məmmədli, A.E. Ekoloji etika bioetikanın tərkib hissəsi kimi // BDU-nun nəzdində Tibb fakultəsinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş "Təbabətin aktual problemlərinə dair" beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı, – 2019, – s. 213.

[59] Məmmədov, V.Q., Bəndəliyeva, A.A. Orta əsr Azərbaycan alimlərinin yaradıcılığında bioetikanın təzahürü // – Bakı: "Dirçəliş – XXI əsr" (Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri), – 2011. №160-161, – s. 310-315.

[60] Bandaliyeva, A.A., Quseynova, A.B., Aslanov, M.Q. Nasıreddın Tusı was a medıeval Azerbaıjanı doctor and scıentıst // Bratislava: Slovak international scientific journal, - 2023. №.77, - p.23-26.

[61] Axundov, İ.A. Füzuli haqqında yeni kitab // – Bakı: "Şəfəq" jurnalı, – 1997. № 3-4, – s. 27-28.

əqlin yaraşığı və əqlin sərmayəsi kimi yaradana öz alqış və təşəkkürünü izhar edir[62].

Göründüyü kimi, Şərqin orta əsr şair və mütəfəkkirləri ömürləri boyu ədalət, insan hüququ, nikbinlik, humanizm uğrunda mübarizə aparmış, həqiqət axtarışında olmuş, insanlarda yaxşı əhval-ruhiyyə yaratmağa çalışmış və bununla da təbabətin inkişafına kömək etmişlər. Onlar təbabətin fəlsəfə ilə, həmin dövrdəki elmlərin digər sahələri ilə sıx əlaqələrini yaratmış, Şərqin orta əsr təbabətinin yüksək səviyyədə inkişafına təkan verərək, humanizm, nikbinlik, insansevərlilik hisslərinin dərindən əks olunduğu poeziya nümunələri yaratmışlar. Yaranan bu nümunələrdəki ideya və fikirlər isə hazırda biotibbi elmlərin tərəqqisi ilə yaranan etik, tibbi, bioloji və hüquqi problemlərlə məşğul olan elmlərarası tədqiqat sahəsi kimi ənənəvi etikanın, hüquq, fəlsəfə və təbabətin elementlərini özündə birləşdirən bioetikanın söykəndiyi əsas prinsiplər, qeyd edilən mütəfəkkirlərin yaradıcılığındakı əsas mahiyyətdən heç nə ilə fərqlənmir.

Tədqiqat işinin III fəslinin üçüncü yarımfəsli **"Orta əsr Azərbaycan təbabət alimlərinin tibbi-əczaçılıq əsərlərində bioetika problemləri"** adlanır. Bu yarımfəsildə göstərilir ki, orta əsrlərdə Azərbaycanda təbabətin məşğul olduğu məsələlərin dairəsi daha da genişlənmiş və müalicə etmə hüququ ancaq mütəxəssislərə məxsus olmuşdur[63].

Azərbaycanın orta əsr həkim-alimlərinə sağlamlığın qorunmasında orqanizmin müdafiəedici və uyğunlaşan reaksiyalarının mühüm rolu məlum olmuşdur. Onlar yazmışlar ki, nəticədə orqanizm öz daxili qüvvələrinin hesabına sağalır. Həkim müdaxiləsi, dərmanlarm təyin edilməsi ancaq sağlamlığın qorunmasında, orqanizmin sağalmasında

---

[62]Rüstəmov, A.İ. Füzulinin "Səhhət və Mərəz" əsəri və onun qısa şərhi / A.İ.Rüstəmov. – Bakı: Təbib, – 1995. – 82 s.

[63] Алекперов, Ф.У., Mammadov, V.Q., Bandaliyeva, A.A. Scientific contribution of medical scientists in middle ages in Azerbaijan //Academia de Ştiinţe a MoldoveiInstitutul de Cercetări Juridiceşi Politice REVISTA de Filosofie, Sociologieşi Ştiinţe Politice 2 (168), – 2015. – p. 239-248.

onun müdafıəedici və uyğunlaşan reaksiyalarına kömək edir.

Xorasanlı Yusif Hərəvi 1511-ci ildə yazdığı "Tibbi-Yusifi" əsərində ətraf mühitin gorunması, ruhi saglamlığın mühafizəsi, yoluxucu xəstəliklərdən, zərərli yeməklərdən qorunma, zərərli içkilərdən uzaq olma, bədənin təmizliyi və sağlam olması, normal gidalanma kimi amilləri sağlamlığın əsas prinsipi olaraq göstərir ki, burada da bioetik məsələlərin təzahürlərinə rast gəlinir.

Bu yarımfəsildə qeyd edilir ki, bioetikanın ölümlə bağlı aktual problemlərindən biri, evtanaziya və "ölüm hüququ" problemidir. İnsanın sağlamlıq, ləyaqətli həyat və ölüm kimi şəxsiyyət hüquqlarının qorunması xüsusilə aktualdır[64].

Dissertasiyanın **Nəticə** hissəsində tədqiqata yekun vurulmuş, orta əsrlərdə Azərbaycan təbabət və dərmanşünasliğinda bioetika və tibbi hüquq problemləri tarixi aspektdən elmi nəticələrlə qiymətləndirilmiş, dissertasiyanın strukturundan çıxış edilərək hər bir fəsil, onun daxilindəki yarımfəsillərin təhlilindən alınmış elmi qənaətlər, üzə çıxan elmi-nəzəri və tətbiqi-təcrübi əsaslar, qarşıda dayanan vəzifələr və aktuallıq kəsb edən elmi ideyalar, nəzəri-praktiki tövsiyələr və təkliflər öz əksini tapmışdır.

Aparılan araşdırmalar zamanı əldə edilən nəticələrə görə məlum olmuşdur ki, hələ neçə əsrlər bundan əvvəl dünya təbabəti və dərmanşünaslığının yaranmasında və inkişaf etməsində əsas rolu Şərq

ölkələrinin, o cümlədən Azərbaycanın alimləri oynamışlar. Şərq və Azərbaycan alimlərinin bu günə qədər gəlib çatan əsərləri bu həqiqəti bir daha təsdiq edir. Məlum olur ki, bu gün müasir elm aləmində yeni sahə kimi tanınan və ilk dəfə XX əsrin ortalarında Amerika və Avropa alimləri tərəfindən yaradılması qeyd olunan müasir bioetika

---

[64] Məmmədov, V.Q., Bəndəliyeva, A.A. Ölüm hüququ və evtanaziyanın bioetik aspektdən öyrənilməsi // Beynəlxalq hüquq və inteqrasiya problemləri, elmi-analitik və praktiki jurnal, "İnsan hüquqları" bölməsi, – Bakı: – 2014. – s. 106-117.

və tibbi hüquq elminin əsas motivi, məşğul olduğu və öyrənməyə başladığı problemlərin böyük əksəriyyəti hələ orta əsrlərdə Şərq, o cümlədən Azərbaycan təbabət və dərmanşünaslığında alim və mütəfəkkirlər tərəfindən öyrənilmiş, onların bir çox əsərlərində öz əksini tapmışdır. Bu isə onu deməyə əsas verir ki, bir çox elm sahələri kimi, müasir bioetika, tibbi hüquq elminin də ilk dəfə meydana gəlməsi və inkişaf tarixi XX əsrdən çox-çox əvvəllərə təsadüf edir. Bu baxımdan həmin tarixin araşdırılaraq, tədqiq edilməsi son dərəcə zəruridir. Bu zərurət isə öz növbəsində bir sıra aşağıdakı tövsiyə və təklifləri doğurmaqla:

- bioetika-tibbi hüquq problemlərinin tarixinə və müasir vəziyyətinə aid yanaşmaları, birtərəfli avropasentrist baxışları tənqidi, obyektiv tədqiq etməklə, bəzi Şərq ölkələri, o cümlədən Azərbaycana məxsus qədim və orta əsr mənbələrində olan məlumatların daha ətraflı öyrənilərək, əldə edilən maraqlı biliklər sayəsində gələcəkdə müasir bioetika və tibbi hüquq elminin daha da inkişaf etdirilməsinə;

- yeni mətləblərin üzə çıxarılması sayəsində bioetik prinsipləri daha da təkmilləşdirməklə, insanların sağlamlıq hüquqlarının qorunması sahəsində mövcud problemlərin aradan qaldırılmasının birdəfəlik həll edilməsinə;

- vacib tarixi mənbələri gələcəkdə daha ətraflı tədqiq etməklə, müasir bioetika və tibbi hüquq sahəsinin fəlsəfi baxımdan müasir dövr tələblərinə uyğun yeni aspektdən daha dərindən öyrənib, bu sahələrin səmərəli inkişafına;

- bioetika və tibbi hüquq elminin Qədim Şərq və Azərbaycanda yaranma, formalaşma və inkişaf dövrünün araşdırılması zamanı Azərbaycanın qədim əraziləri olan Təbriz, Xoy, Marağa, Naxçıvan, Tiflis, Gəncə, Qarabağ, Şirvan və digər bölgələrinin alim və mütəfəkkirlərinin yaradıcılığından əldə edilən nəticələrin respublikamız üçün çox böyük elmi, tarixi, coğrafi və strateji əhəmiyyət kəsb edilməsi reallığı baxımından təbliğinə:

- səhiyyə sahəsiylə yanaşı, iqtisadiyyat, mədəniyyət, sosiologiya, ekologiya, hüquq və digər bu kimi sahələrdə cəmiyyətə və şəxsiy-

yətə aid olan, hüquqi müstəviyə qədər olan mərhələdə yaranan problemlərin, zamanında həll edilməsində mühüm rol oynayan bioetik prinsiplərin daha da inkişaf etdirilməsinə;

- gələcəkdə tarix, tibb, əczaçılıq, fəlsəfə, dinşünaslıq, etika, biologiya, ekologiya və digər sahələrin bioetikasının yeni istiqamətləri üçün kadrların hazırlanmasına geniş imkanların yaradılmasına;

- Azərbaycan Respublikasında ilkin inkişaf mərhələsində olan yeni tibbi hüquq və müasir bioetikanın, onun prinsiplərinin milli və ümumbəşəri dəyərlərə önəm verməklə ictimai həyatın bütün sahələrində, o cümlədən qanunvericilik sahəsində tətbiq olunması stabil, sağlam və dinamik cəmiyyət quruculuğuna, dövlətçiliyin möhkəmlənməsinə, cəmiyyətin sosial sahələrinin, xüsusən tibb və əczaçılığın dünyaya inteqrasiyasına, əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıda qeyd olunan elmi işlərində əksini tapmışdır:**


1. Həmmüəlif (V.Q. Məmmədov, İ.S.Əhmədov ilə ilə) Faydalı bitkilərdən istifadənin aktual problemləri // Beynəlxalq konfransın materialları, AMEA-nın Botanika İnstitutu, – Bakı, – 26-28 oktyabr, – 2011, – s. 144-146.
2. Həmmüəlif (A.İ.Mustafayeva, V.Q. Məmmədov ilə) Pasiyent hüquqlarını əks etdirən beynəlxalq sənədlərin və xarici ölkələrin qanunlarının tədqiqi // – Bakı: AMEA-nın İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu “Özümüzü və dünyanı dərketmə yolunda” Elmi məqalələr toplusu. – 2011. № 6, – s. 15-21.
3. Orta əsrlərdə Cənubi Azərbaycanda dərmanşünaslığın inkişafı // Azərbaycan Tibb Universitetinin Respublika Dövlət Mükafatı Laureatı, Ə.e.x., prof. T.Ə.Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş elmi konfransınınmaterialları, – Bakı, – 2011, – s. 412-413.

4. Bitki mənşəli dərman preparatlarının alınma üsullarına nanotexnologiyanın tətbiqi // – Bakı: Azərbaycan təbabətinin müasir nailiyyətləri Rüblük elmi-praktik jurnal, – 2011. № 4, – s. 34-37.
5. Əbdülhəsən Əl-Marağainin “Müalicəti-münfəridə” əsəri haqqında // Azərbaycan Tibb Universitetinin Respublika Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi, professor T.Ə.Əliyevin anadan olmasının 90 illiyinə həsr edilmiş elmi konfransın materialları, – Bakı, – 2011, – s. 411-412.
6. Həmmüəlif (V.Q. Məmmədov ilə) Orta əsr Azərbaycan alimlərinin yaradıcılığında bioetikanın təzahürü // – Bakı: “Dirçəliş – XXI əsr” (Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri), – 2011. №160-161, – s. 310-315.
7. Həmmüəlif ( N.Ə.Əzizzadə ilə) Əczaçılıq bioetikası əczaçılıq fəaliyyətinin mənəvi-əxlaqi amillərinin əsası kimi // ATU-nun Əziz Məmmədkərim oğlu Əliyevin anadan olmasının 115 illiyinə həsr edilmiş konfransın materialları, – Bakı, – 2012, – s. 375-376.
8. Həmmüəlif (V.Q. Məmmədov ilə) İslami dəyərlərdə bioetika prinsiplərinin təzahürü // “Din və Etiqad azadlığı: Hüquqi, siyasi və ictimai aspektləri” Beynəlxalq tərkibli konfransın tezislər toplusu, AMEA İnsan Hüquqları İnstitutu, – Bakı, – 2012, – s. 26-27.
9. Həmmüəlif (V.Q. Məmmədov ilə) Əczaçılıq sahəsində bioetik prinsiplərin yeri və rolu // – Bakı: “Dirçəliş – XXI əsr”, Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutunun elmi nəşri jurnalı, – sentyabr-oktyabr 2012. № 169-170, – s. 335-341.
10. Həmmüəlif (N.Ə.Əzizzadə və M.Q.Aslanov ilə) Azərbaycan Çin elmi əlaqələrinin yaranmasının inkişafı tarixi // AMEA-nın İnsan Hüquqları İnstitutunun “Çin və Azərbaycan inkişaf fenomeni vətəndaşların sosial-iqtisadi inkişafı konteksində” mövzusunda Beynəlxalq Konfransının məruzə və tezislər toplusu, – Bakı, – 01 iyul, –2013, – s. 108-113.

11. Sağlamlığın qorunmasının bioetik aspektləri //Azərbaycan Tibb Universiteti, ə.e.x., t.e.d., professor Zəhra Tahir qızı Quliyevanın 90 illik yubileyinə həsr edilmiş elmi konfransın materialları, – Bakı, – 2013, – s. 37-39.
12. Həmmüəlif (M. Hacıyev ilə) Tibbi hüququn qorunması – insan hüquqlarının qorunması amili kimi // – Bakı: "Özümüzü və dünyanı dərketmə yolunda" AMEA İnsan Hüquqları İnstitutunun elmi məqalələr toplusu, – 2013.№, – s. 17-22.
13. Həmmüəlif (F.U.Ələkbərli ilə) Изучение биоэтических и этических аспектов в развитии азербайджанской медицины и фармации // – Воронеж: Технологии и методики в образовании, – 2013. № 3, – с. 12-16.
14. Этические асректы подготовки современных профессионалов в области фармации // Сборник материалов III Всероссийской научно-практической конференции с международным участиемГБОУ ВПО СОГМАМинздрав РФ. – Владикавказ, – 23-24 мая 2013, – с. 12-14.
15. Həmmüəlif (V.Q. Məmmədov ilə) Role of ethical behavior of pharmacists // Abstracts Book of the 20th World Congress on Medical Law, – Bali, Indonesia, – 21-24 August, 2014. – p. 40-58.
16. Bioethics and pharmacy // 2 İnternational Conferense ofEthicsEducation, – Ankara Türkey, – 2014. – p. 67.
17. İbn Sina yaradıcılığı, onun Azərbaycan təbabət və dərmanşünaslığının inkişafında rolu // – Bakı: Bakı Dövlət Universitetinin Xəbərləri jurnalı, Humanitar elmlər seriyası, – 2014. № 1, – s. 119-124.
18. Orta əsrlərdə islam təbabətində istifadə edilən müalicə vasitələri haqqında // – Bakı: Odlar Yurdu Universitetinin "Elmi və Pedaqoji Xəbərləri" jurnalı, – 2014. № 40, – s. 131-135.
19. Həmmüəlif (M.Q. Aslanov ilə) Əxlaqi konfliktlərin idarə olunmasında bioetianın rolu // – Bakı: "Özümüzü və dünyanı dərketmə yolunda" AMEA İnsan Hüquqları İnstitutunun elmi məqalələr toplusu, – 2014. № , – s. 148-151.

20. Həmmüəlif (V.Q. Məmmədov ilə) Ölüm hüququ və evtanaziyanın bioetik aspektdən öyrənilməsi // Beynəlxalq hüquq və inteqrasiya problemləri, elmi-analitik və praktiki jurnal, "İnsan hüquqları" bölməsi, – Bakı: – 2014. – s. 106-117.
21. Həmmüəlif (A.İ.Mustafayeva, Əhmədov, İ.Ə. ilə) Nigahdan əvvəl genetik müayinənin bioetik və hüquqi aspektləri // – Bakı: Azərbaycan təbabətinin müasir nailiyyətləri, Rublük elmi-praktik jurnal, – 2015. – s. 147-153.
22. Bioetika və Şərq təbabətində əxlaqi-etik dəyərlərin öyrənilməsi // Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Təbabətin aktualproblemlərielmi-praktik konfransın materialları, – Bakı, – 2015, – s. 150.
23. Həmmüəllif (F.U.Alakbarli, V.K.Mammadov ilə) Scientific contribution of medical scientists in middle ages in Azerbaijan //Academia de Ştiinţe a MoldoveiInstitutul de Cercetări Juridiceşi Politice REVISTA de Filosofie, Sociologieşi Ştiinţe Politice 2 (168), – 2015. – p. 239-248.
24. Bioethical Problems of Azerbaijan Medicine in the Middle Ages // 23rd Annual Congress of World Association for Medical Law, Volume 36 (0172), – Baku, – 11-13 iyul, – 2017, – p. 245.
25. Həmmüəllif (M.Q..Aslanov ilə) Əczaçılıq bioetikası bioetikanın tərkib hissəsi kimi // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş ATU "Təbabətin aktual problemləri 2018" elmi-praktik konfransın materialları, – Bakı, – 2018, – s. 158.
26. Orta əsr əczaçılığının inkişafında etik prinsiplərin rolu Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş ATU "Təbabətin aktual problemləri 2018" elmi-praktik konfransın materialları, – Bakı, – 2018, – s. 157.
27. История медицины и фармации в Азербайджане // –Київ: Национальний педагогічний университет імени М.П.Драгоманова ВГО Українська академія наук Видавництво «Гілея» Науковий вісник, –2019. № 145 (№ 6), – с. 13-17.

28. Həmmüəllif (M.Q..Aslanov ilə) Əczaçılıq yardımının təşkili tibbi hüququntəmin edilməsində əsas amillərdən biri kimi // BDU-nun nəzdində Tibb fakultəsinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş "Təbabətin aktual problemlərinə dair" beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı, – 2019, – s. 212.
29. Həmmüəllif (M.Q.Aslanov ilə) Əczaçılıq bioetikası və müasir əczaçılıq bazarının bəzi xüsusiyyətlərinin öyrənilməsi // Tibb elmləri doktoru Əzəm Təyyar oğlu Ağayevin anadan olmasının 75 illiyinə həsr edilmiş elmi konfransın materialları, c. 4. – Bakı, – 2019, – s. 23-27.
30. Həmmüəllif (A.E.Məmmədli ilə) Ekoloji etika bioetikanın tərkib hissəsi kimi // BDU-nun nəzdində Tibb fakultəsinin yaradılmasının 100 illik yubileyinə həsr olunmuş "Təbabətin aktual problemlərinə dair" beynəlxalq elmi-praktik konfransın materialları, – Bakı, – 2019, – s. 213.
31. Həmmüəllif (A.E.Məmmədli ilə) Ekoloji tarazlıq təbii mənşəli dərman vasitəıərinin qorunması amili kimi // ATU-nun İnsan anatomiyası və tibbi terminologiya kafedrasının yaradılmasının 100 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktik konfransın materialları,– Bakı, – 2019, – s.27-28.
32. Medical medication of medical scientists in medieval Azerbaijan research of bioethics problems in his works // – Los Angeles: Mester isindexed in the Clarivate Analytics – Web of Science. University of California, – 2020, Vol. 49, Issue 1, – p.202-213.
33. Həmmüəllif (A.E.Məmmədli ilə) Tibbi və ekolojı bioetikanın öyrənilməsi insan sağlamlığının qorunması amili kimi // Azərbaycan Tibb Universitetinin yaradılmasının 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, – Bakı, – 2020, – s. 436-437.
34. Həmmüəllif (M.Q..Aslanov ilə) Azərbaycanda əczaçılığın yeni dövr inkişafına dair // Azərbaycan Tibb Universitetinin yaradılmasının 90 illiyinə həsr olunmuş Beynəlxalq elmi konfransın materialları, – Bakı, – 2021, – s. 408.

35. Orta əsrlərdə Azərbaycanın Qarabağ bölgəsində təbabət və dərmanşünaslığın inkişafı // Karabağ Uluslararası Sosyal ve Beşeri Bilimlerde Modern Araştırmalar kongresi,– Bakı, – 17-19 iyun, – 2021, – s. 16-17.
36. Təbabət və onun etıkası problemlərinin orta əsr elm mənbələrində araşdırılması // – Bakı: Nəzəri, Klinik və Eksperimental Morfologiya jurnalı, – 2021. № 1-2, – s.13-17.
37. Nizami Gəncəvi yaradıcılığında tibbi dünyagörüşü // AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun, Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə "Nizami Gəncəvi: Sələflər və Xələflər – Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyətinin tarixi problemləri" mövzusunda elmi-nəzəri konfransın materialları, - Bakı, - 2021. - s.106-108.
38. Orta əsr azərbaycan təbabət alimləri və mütəfəkkirlərinin alternativ tibbə dair yaradıcılığında bioetika problemlərinin araşdırılması // Naxçıvan Dövlət Universitetinin "Alternativ tibb metodlarının tətbiqi məsələləri" mövzusnda Respublika elmi. konfransının materialları, - Naxçıvan, - 2021. - s.97-105.
39. Milli əczaçılıq etikası bioetikanın tərkib hissəsi kimi // Azərbaycan Tibb Universitetinin yaradılmasının 90, Azərbaycanda Ali Əczaçılıq təhsilinin 80 illik yubileylərinə həsr edilmiş "Əczaçılığın müasir problemləri" mövzusunda V Beynəlxalq elmi konfransın materialları, – Bakı, – 2021. – s. 272-273.
40. Bioethics principles in literary and philosophical creativity of medieval Azerbaijani poets and thinkers // Proceedings of the scholarly abstracts European Academic Science and Research, Publisher:"EASR" SciPub.de, - 2021, - p.16.
41. Medical and bioethical issues in the works of Nizami Ganjavi // - Baku: Journal of Language and Literature, - 2022. №.1, - s.52-60.
42. Həmmüəllif (Quseynova A.B., M.Q..Aslanov ilə) The role of bioetics in education and practice of medicine and pharmacy // - İtalia: İtaly sscientific jounal, Volume 1, - 2022. №29, - p.74-76.
43. Həmmüəllif (Quseynova A.B., M.Q..Aslanov ilə) Basic principles

of pharmaceutical bioethics, ethics, deontology in Azerbaijan and organization of education in this direction // - Praqa: The journal is registered and published in Czech Republic. Sciences-of-Europe--Volume 1, - 2022. № 90, - p. 37-42.

44. Orta əsrlərdə əczaçılığın xarakterık xüsusıyyətlərının öyrənılməsı // - Bakı: Azərbaycan Dövlət Prdaqoji Universiteti, "Pedaqoji Universitetin Xəbərləri" (Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası) jurnalı, - 2023.. №4, - s.69-81.
45. Həmmüəllif (Quseynova A.B., M.Q..Aslanov ilə) Nasıreddın Tusı was a medıeval Azerbaıjanı doctor and scıentıst // Bratislava: Slovak international scientific journal, - 2023. №.77, - p.23-26.
46. Həmmüəllif (Quseynova A.B., M.Q..Aslanov ilə) Medical worldwide in the creation of famous poets and thinkers of ancient Azerbaijan // Budapest, Hungary: - The scientific heritage journal, – 2023. № 124, - p.20-24.
47. Orta əsrlərdə şərq ölkələrində təbabət və dərmanşünaslığın inkişafının öyrənilməsi // Bakı: Avrasiya Universiteti, Sivilizasiya jurnalı, Volme 12, - 2023. №5(56), - s.86-93.
48. About the creativity of famous doctors of medieval Azerbaıjan // HUMANITIE/ /CIENCE CURRENT I//UE/:Interuniversity collection of Drohobych Ivan Franko /tate Pedagogical University Young /cientists Research Papers. Видавничий дім «Гельветика» journal, Volme 12, - 2024. - p..21-26.
49. Orta əsrlər Azərbaycan Təbabət və əczaçılığının inkişafında alimlərin rolu // Azərbaycan Tibb Universitetində keçirilən "Yaşıl Dünya Naminə Həmrəylik" ilinə həsr olunmuş "Təbabətin aktual problemləri" mövzusunda Beynəlxalq elmi-praktiki konqres, "Yaşıl dünya və sağlamlıq" simpoziumunun materialları, - Bakı, - 2024. – s.216.

Dissertasiyanın müdafiəsi 05 dekabr 2024-cü il tarixində saat 10⁰⁰ Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu nəzdində fəaliyyət göstərən BFD 1.30 Birdəfəlik Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1073, Bakı şəhəri, H.Cavid, 115

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi arxiv və kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Milli Elmlər Akademiyası A.A. Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30 oktyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 25.10.2024
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 43 440 işarə
Tiraj: 100